İşıqlı sabahlar üçün, parlaq bir gələcək üçün,
çiçəklənən millət üçün, səsi dünyaya yayılacaq bir
gənclik üçün, düşünərək yaşayanlar üçün, xoşbəxt bir
ailə üçün, sevincli qəlblər üçün, gülən üzlər üçün,
həyat səhifələrimizi parlaq imza sahiblərinin
qələmi ilə yazmaq üçün

parlaq imzalar

Kitabın sahibi: ______________________________

Oxu tarixi: ______________________________

# ÇƏRÇİVƏ

(şeirlər)

ARAZ ƏFƏNDİ

parlaq
İMZALAR

| | |
|---|---|
| Buraxılışa məsul: | Nurman TARİQ |
| Redaktorlar: | Məhəmməd NURİ<br>Əlhəm DƏŞTİ |
| Korrektor: | Elnur HAFİZ |
| Yekun oxunuş: | Amin SÜKUT |
| Bədii və texniki tərtibat: | İsmayıl SÜLEYMANLI |
| Üz qabığının dizaynı: | Ramin HƏSƏNƏLİZADƏ |

**Araz Əfəndi**
**ÇƏRÇİVƏ**

Bakı, "Parlaq İmzalar" Nəşriyyatı – 2020, 160 səh.

**© Araz Əfəndi / 2020**
**© Parlaq İmzalar MMC / 2020**

Kitabın bütün hüquqları qorunur. İcazəsiz olaraq hər hansı vasitə ilə nəşri qadağandır.

Parlaq İmzalar Nəşriyyatı | 95
Yeni İmzalar Seriyası – Şeir | 4

ISBN 978-9952-5255-7-1

www.parlaqimzalar.az
info@parlaqimzalar.az
fb.com/parlaqimzalar
0552595972 / 0559697259

Mətbəə: "Nurlar" NPM
Çap tarixi: 27.06.2020
Sifariş: 001(17)/20

# Mündəricat

Ön söz ____ 9

Şeirlər ____ 11

Ad günümə ____ 13

Heçlik ____ 14

Bir gün ____ 15

Kliniki ölüm ____ 16

İnsan ____ 18

Gedəsən ____ 20

Dəyişir ____ 21

Xoşbəxtlik axtarışında ____ 23

Dostluq evi ____ 25

Sayrışan ağrılar ____ 27

Həyat məktəbi ____ 28

Darıxmaq ____ 30

İntihar ____ 31

Qocalar evi ____ 33

Bir parça xatirə ____ 34

Payızlı xatirələrdən ____ 36

Qəzəllər ____ 37

Bir adam ____ 39

Deyil ki? ______ 40
Gördüklərimdən ______ 41
Qalmayanların eşqinə ______ 42
Olan deyil ______ 43
Olmayanların eşqinə ______ 44
İnsanlar içində ______ 45
Canı yanmış ______ 46
Bu mənadan o mənaya ______ 47
Bir ölüm ______ 48
Hər yerdə ______ 49
Payız ______ 50
Təkəbbürdən uzaq ______ 51
Azlıqlar içində ______ 52
Dilin qüdrəti ______ 53
Bilmədiklərim ______ 54
Hər nə vicdan göstərir düz istiqamətdir elə ______ 55
Bizdən-bizə ______ 56
Gözdən-gözə ______ 57
Bilmədiklərimdən ______ 58
Darıxdığım qədər ______ 59
Gedib-gələnlərdən ______ 60
Düşüb-qalanlardan ______ 61
Gələnlər ______ 62
Heçlikdən qopan sətirlər ______ 63
Üçün ______ 64
Qalıb ______ 65
Şirin-şirin ______ 66

Ənənəvi şeir ruhu 67
Saqinamə 68
Ənənəvi şeir 69
Türkiyə türkcəsində 70
İmadəddin Nəsiminin xatirəsinə 71
İmadəddin Nəsiminin xatirəsinə 72
İmadəddin Nəsiminin xatirəsinə 73
Ayrılıb gedir 74
Qövsi Təbrizinin xatirəsinə 75
Seyid Əzim Şirvaninin xatirəsinə 76
Nişat Şirvaninin xatirəsinə 77
Hövsanlı Ağadadaş Müniriyə 78
Əliağa Vahidin xatirəsinə 79
Nardaranlı Hacı Qəzənfər Talibə 80
İlqar Süleymanlı Bizəbana 81
Sözdən bir parça 82
Qələm eşqinə 83
Üstünə 84
Oldu-olmadı 85
Seçilmiş insana 86
Mənzərədən-mənzərəyə 87
Sayrışan xəyallar 88
Aşiqlərə sərmayə 89
İlk addımlardan 90
Sovetski məhəlləsinə satira 91
Satira 92
Məsnəvilər 93

Sanki 95
Rəqs eləyir 97
Mən 99
Sən 100
Pozulanlardan 101
Yenə 103
Eşq 105
Təzadlı həyat 107
Kim itirmir ki, biz də belə itiririk... 108
Eşqin dəlilik mərtəbəsi 109
İblisin məktubu 110
Türkiyə türkcəsində 113
Müxtəlif şeirlər 115
Kor inam 117
Payızlı xatirələrdən 119
Yenə 120
Qeydə alınmayan qeydlər 122
Bakı şəhərinə 124
Payızlaşan mövzulardan 126
Payıznamə 128
Bir Dərvişin dilindən 130
Gecənin şeiri 132
Şair-qəzəlxan
İlqar Süleymanlı Bizəbandan təxmis 134
Hüseyn Cavidin xatirəsinə 136
Axund Azər Saniyə 138
Rəylər 141

# Ön söz

Azərbaycan ədəbiyyatı tarixində minillik yaşı olan əruz vəznli poeziya zaman-zaman müəyyən təzyiqlərə məruz qalmış, milli poetik ənənənin daşıyıcısı olduğuna görə bəzən hətta onu tariximizdən silməyə də cəhd göstərmişlər. Lakin Divan ədəbiyyatı xalqımızın təhtəlşüuruna elə möhkəm kök salıb ki, bütün cəhdlərə rəğmən, əruz poeziyasını xalqımızın yaddaşından silmək mümkün olmamış, uğurla XXI əsrə qədər gəlib çıxmışdır.

Bu gün də Azərbaycan gəncləri arasında əruz vəznli poeziyaya, əsasən də qəzəl janrına maraq getdikcə artmaq üzrədir. Müxtəlif ədəbi məclislərdə, dərnəklərdə, ədəbi klublarda birləşən gənclər ustad şairlərdən əruzun və klassik poeziyanın sirlərini öyrənir və yaşatmağa çalışırlar.

Belə gənclərdən biri də poeziyaya hələ yenicə qədəm qoymuş Araz Əfəndidir. Bütün bu qloballaşma dövründə öz gələcək yaradıcılığı üçün ən çətin vəzn olan əruzu seçməyi onu deyir ki, Araz çətinliklərdən qorxan gənclərdən deyil. Onun yaradıcılığında heca vəznində şeirlər də yer alır. Lakin hiss olunur ki, əruza marağı və həvəsi daha çoxdur...

Əlbəttə ki, əruz poeziyasının əsas çətinliyi uzunmüddətli öyrənmə prosesidir. Çünki sadəcə bəhri tutmaqla iş bitmir. Burada qafiyə sistemlərini dürüst əxz etmək, rədif bağlantılarını məntiqi qurmaq, ümumilikdə beytlərin intonasiyasını təmin etmək o qədər də asan deyil və əruzda yazmağa çalışan hər bir gənc əvvəlcə bu klassik ab-havanı bütün varlığı ilə hiss elə-

məli, klassik üslubda xeyli qəzəllər yazmalı, yalnız bundan sonra hansısa yeniliklər etməyə çalışmalıdır.

Ümumilikdə Arazın yeniliyə cəhd etməsi təqdirəlayiqdir və başa düşüləndir. İndi biz elə dövrdə yaşayırıq ki, hər şey dayanmadan sürətlə dəyişir, yenilənir və belə zamanda əruz poeziyası da yüz il əvvəlki kimi yazıla bilməz. Əminəm ki, Arazın gələcək yaradıcılığında daha da kamil və bitkin poetik tapıntılar görə biləcəyik. Mən gənc şairimizə uğurlar arzu edirəm və inanıram ki, onun imzasını yaxın zamanlarda daha da aktiv ədəbi mühitdə görəcəyik.

*İlqar FƏHMİ*
*şair-yazıçı, ssenarist*

# *Şeirlər*

## *Ad günümə*

Ömrümün iyirmi beş baharı ötür,
iyirmi beş baharı ötür ömrümün.
Bu heçli ömürdən geriyə, Allah,
nə qalıb, nəyi var, gətir ömrümün.

Fələklə qarşımı elə kəsmisən,
həm səndən ayrılıb, həm gəldim sənə.
Ömrümün daş-kəsək yolunda daim
alçalıb, yenidən yüksəldim sənə.

Əvvəldən ruhunun beşiyində mən,
bir həyat yaşayıb səndə ölmüşəm.
Bəlkə də, yoxluğa dözə bilməyib,
ardımca biryolluq sən də ölmüsən.

Elə bir düyünə düşüb bəxtimiz,
nə bir açanı var, nə bağlayanı.
Bu necə tilsimdi, ilahi, məni,
ya özünlə yaşat, ya al bu canı.

Bu eşqi qoymayaq ölə, ilahi,
hər sonluq bu eşqə qoy verə nəfəs.
Ayrılıq bu eşqin övladı olsun,
mən sənə gecikim, sən mənə tələs.

## *Heçlik*

Bir ölüm nədir ki, unutmaq üçün,
bir həyat gərəkdir xatırlamayaq.
Bir səbəb nədir ki, qayıtmaq üçün,
əgər öz xoşuyla gedibsə ayaq.

Bəs etməz ölüm də bu ayrılığa,
başqa bir sonluğa bitişək gərək.
Bu böyük həsrətin bitməsi üçün,
hər şeyi əvvəldən dəyişək gərək.

Cavabı olmayan suallar kimi,
içimdə qorxular, şübhələr gəzir.
Fikrimdə keçmişlər qürub eləyir,
ruhumda kimsəsiz kölgələr gəzir.

Heç bir şey ağrılı deyildi belə,
yoxluqdan-yoxluğa sovrulmaq kimi.
İnsan da özündən qoparmış demə,
səs-küylü evlərdə tək qalmaq kimi.

Təpədən dırnağa buz kəsir sükut,
ən əziz kəslərin getdiyi yerdə.
Bircə pay darıxmaq düşür qismətə,
hər şeyin başlayıb bitdiyi yerdə.

### *Bir gün*

Birgünlük şeirdir elə bil həyat,
bir gündə yazılır, bir gündə bitir.
Alına cızılan taleyimiztək,
bir gündə pozulur, bir gündə itir.

Bir günlə başlayır başlanğıcımız,
bir ömür bir güntək gəlir hamıya.
Bu fələk hamını kəfənə büküb,
bir gündən bir günə gülür hamıya.

Bir ovuc keçmişin qırıntısıyla,
hamı bir sonluğa atır özünü.
Kimi bir ümiddən asılıb ölür,
kimi bir boşluqda tapır özünü.

Yenə bir şübhədən qopur xəyanət,
keçmişi indiyə yıxıb gedirik.
Bir ömür sevilən ən əziz kəsi,
bir gündə unudub, çıxıb gedirik.

Uşaqtək, bir gündə küsüb-barışıb,
bir gündə əvvəldən axıra gəldik.
Elə bil bir gündə baş verir hər şey,
elə bil bir gündə doğulub öldük.

## *Kliniki ölüm*

Bir səhər yuxudan ölü durasan,
görəsən başına yığılıb hər kəs.
Evini bürüyən səs-küy içində,
fikirdən-fikirə dağılıb hər kəs.

Başına yığılan dostun, düşmənin,
hərəsi bir ağız susa bu hala.
Durmadan ağlaya anan, atanın,
gözləri yerlərə sancılıb qala.

Beləcə yoxluğun yayıla evə,
güzgülər geyə öz hicabların da.
Bir qutu bətninə qoyula o gün,
dəftərin, qələmin, kitabların da.

Uşaqkən çiynində səni gəzdirib,
böyüdən atan da özünə çökə.
Sənli arzuları çiyninə alıb,
son dəfə çiynində yükünü çəkə.

Bağlana əllərin, ayağın o gün,
dinməzcə bədənin tabutda yata.
Bir zaman ardınca su tökən anan,
bu dəfə ardınca göz yaşı ata.

Sükuta sovrula qaranlıq o an,
soyuya bədənin hirsinə qədər.
Bir tabut içində, bir gəmi kimi,
üzəsən evindən qəbrinə qədər.

Deyəsən: "İlahi, ölüm bu imiş?"
Gözlərin qarala, kiriyə dilin,
buz kimi tər basa bədənini də,
ayılıb görəsən yatağındasan,
gördüyün ölüm yox, demə, yuxuymuş.

## *İnsan*

Elə bir sürətlə zaman keçər ki,
bir göz qırpımında böyüyər insan.
Bir arzu, bir ümid yetişdirərək,
özü öz içindən çürüyər insan.

Hər gün bir arzuya varaq açaraq,
xatirdən xatirə qucaq açaraq,
dolaşıb dilləri, ayaq açaraq,
yalanla bərabər yeriyər insan.

Keçmişi keçmişdə, keçərkən qoyub,
yeyərək özü öz ağrısın doyub.
Canını tapşıran şam kimi susub,
hər gecə bir az da əriyər insan.

Əməli bilinməz yaxşıdır, ya pis,
fikri, arzusu, xəyalı naqis.
Yarısı Adəmdir, yarısı İblis,
bilinməz neyləməz, neyləyər insan.

Yetməz heç ölüm də yetdiyi kəsə,
qayıdar təzədən getdiyi kəsə.
Özünə xəyanət etdiyi kəsə,
məcbur öz kürəyin söykəyər insan.

Özgə bir sonluqla açar səhəri,
sovrular yoxluğa ömür qədəri.
Torpağın bətninə qayıdıb geri,
kiriyər, kiriyər, kiriyər insan...

## *Gedəsən*

Nifrətdən doğula sevgi zamanla,
itirib, qazanıb, çıxıb gedəsən.
Özgəni çölünlə yeyib bir ömür,
içindən talanıb, çıxıb gedəsən.

Bilmədən bir ürək qırıb bir kərə,
soyuyan hirsindən batasan tərə.
Yenə də gözlərin döşənə yerə,
utanıb, utanıb, çıxıb gedəsən.

Düşübdür ayrılıq izinə onun,
bu da bir sonluqdur özünə onun.
Gedəndə baxmaqçün üzünə onun,
bir anlıq dayanıb, çıxıb gedəsən.

Nə qədər zaman da keçsə aradan,
heç nəyi dəyişməz qurub-yaradan.
Şirin bir yuxudur həyat, buradan,
sakitcə oyanıb, çıxıb gedəsən.

Bu həyat belədir ta əzəlindən,
baş açmaq olmayır bir əməlindən.
Bu qarı dünyanın tutub əlindən,
yaxşısı, dolanıb, çıxıb gedəsən.